# Kazus

(Bir monarxın gizli uşağının olmasını açıqlayan məqalə və fotoların dərci)

Ərizəçilər həftəlik jurnal olan *Paris Match* jurnalının müvafiq olaraq nəşr direktoru və nəşriyyat şirkətidir.

<u>Faktlar:</u>

3 may 2005-ci ildə *Daily Mail* adlı Britaniya qəzeti, oğlunun atasının Monakonun idarəedici Şahzadəsi olan Albert Grimaldi (bundan sonra "Şahzadə") olduğunu iddia edən xanım C.-nin açıqlamalarını təsvir edən "Bu oğlan Monako taxtının varisidir?" adlı bir anons nəşr etmişdir. Bu məqalə *Paris Match*-da nəşr olunacaq məqaləni xatırladır və onun əsas elementlərini sadalayırdı. Məqalədə üç foto da yerləşdirilmişdir ki, bunlardan biri qucağında uşaq olan Şahzadəni göstərirdi. Şəklin altındakı yazı belə idi "Onun taxtda davamçısı? Şahzadə Albert Aleksandr ilə".

Həmin gün, *Paris Match*-da məqalənin nəşr olunacağından xəbərdar olan Şahzadə Albert ərizəçilərə onu yayınlamaqdan çəkinməyi tələb edən bir xəbərdarlıq göndərdi.

5 may 2005-ci ildə, Şahzadənin etməmək xəbərdarlığına baxmayaraq, həftəlik *Paris Match* jurnalı 2920 saylı buraxılışında, jurnalın üz qabığında Şahzadənin qucağında uşaqla fotosunun əlavə edildiyi "Monakolu Albert: Aleksandr, gizli uşaq" ("*Albert de Monaco: Aleksandr, l'enfant secret*"), başlıq verdi. Jurnalın 50-59-cu səhifələrində məqalə, Xanım Coste ilə müsahibədən ibarət idi. O, jurnalistin verdiyi suallara cavab vermiş və 24 avqust 2003-cü ildə doğulmuş oğlunun atasının Şahzadə olduğunu bildirmişdir. Xüsusilə, məqalədə Xanım C.-nin Şahzadə ilə tanış olduğu şəraiti, onların intim münasibətlərini, hisslərini və Şahzadənin Xanım C.-nin hamilə olması xəbərinə necə reaksiya verdiyini və uşaq doğulduqda və ondan sonra ona necə münasibət bəslədiyi təsvir edilirdi. Müsahibəyə Şahzadənin uşaqla beş, Xanım C. ilə iki şəkli də əlavə edilmişdi. Xüsusilə, qoşa səhifəlik bir hissədə (səhifə 50 və 51) Şahzadənin qucağında uşaqla şəkli verilmişdi və başlıq belə idi "Anası deyir ki, Aleksandr 'Albertin oğludur'"

Şahzadə ərizəçiləri,Konvensiyanın 8-ci və Mülki Məcəllənin 9-cu və 1382-ci maddələrinə istinad edərək şəxsi həyatına və imajına vurduqları zərərin əvəzini ödəməkləri üçün məhkəməyə verdi. Yerli məhkəmələr ona haqq verdi və 50 000 EUR məbləğində kompensasiya ödənilməsini və jurnalda səhifənin üçdə biri ölçüdə bu qərar barədə məlumatın dərc olunmasını əmr etdi.

İşə yerli məhkəmələrdə baxılan zaman Şahzadə rəsmi bəyanat və çoxsaylı mətbuat müsahibələri ilə nikahdan kənar oğlunun mövcudluğunu təsdiq etmək məcburiyyətində qalmışdır.

Ərizəçilər 10-cu Maddənin pozulması əsası ilə Avropa Məhkəməsinə şikayət etdilər.

Ərizəçi tərəfin 10-cu Maddə ilə şkayətinin maddi-hüquqi əsası nədir?

Dövlət tərəfi müdafiəni necə quracaq?

*Qeyd: Müzakirələr zamanı həmçinin aşağıdakılara diqqət yetirilməsi xahiş olunur:*

- Ərizəçilərin cəzalanması onların ifadə azadlığı hüququna müdaxilə təşkil edirmi?
- Müdaxilə qanunla nəzərdə tutulmuşdurmu və qanuni (legitim) məqsəd daşıyırdımı?
- Müdaxilə demokratik cəmiyyətdə zəruriidimi?

Cavab: Kuderk və AşettFilipakkiassosye" Fransaya qarşı iş

Müdaxilə baş verib, lakin şəxsi həyata hörmət hüququ ilə ifadə azadlığı hüququ arasında balans qorunmayıb və 10-cu maddə pozulub.

*Hazırladı: Rafael Eyvazov*